*UOT 37.0*

***Elvira Haqverdi qızı Kərimova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Tarix və coğrafiya fakültəsinin dekan müavini*
*https://orcid.org/0009-0000-3052-1040*
*E-mail:elvira.karimova83@mail.ru*
*https://orcid.org/0009-0000-3052-1040*
https://doi.org/10.69682/arti.2025.92(1).46-49

# TƏHSİLDƏ HUMANİSTLƏŞDİRMƏ AMİLİ VƏ ONUN MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ

***Эльвира Хагверди гызы Керимова***
*заместитель декана факультета истории и географии*
*Азербайджанского Государственного Педагогического Университета*

# ФАКТОР ГУМАНИЗАЦИИ В ОБРАЗОВАНИИ И ЕГО ВЛИЯНИЕ НА ВЗАИМООТНОШЕНИЯ УЧИТЕЛЬ-УЧЕНИК

***Elvira Hagverdi Karimova***
*deputy dean of the faculty of History and geography at the*
*Azerbaijan State Pedagogical University*
*https://orcid.org/0009-0000-3052-1040*

# THE HUMANIZATION FACTOR IN EDUCATION AND ITS IMPACT ON TEACHER-STUDENT RELATIONSHIPS

**Xülasə.** Təhsilin humanistləşdirilməsi müəllimdən demokratik iş üslubu tələb edir. Hər bir müəllim qarşısında əyləşən şagirdə gələcəyin böyük adamı kimi baxmalı, onun maraq və tələbatlarına, arzularına, ehtiyaclarına xüsusi diqqətlə yanaşmalı, rəy və təkliflərini nəzərə almalıdır. Bunun üçün müəllim, ilk növbədə, kommunikativ qabiliyyətə, pedaqoji duyuma – empatiya hissinə malik olmalı, şagirdlərə fərdi yanaşmağı, onlara münasibətdə hörmət nümayiş etdirməyi, sinifdə sağlam mənəvi-psixoloji və öyrənmə mühiti yaratmağı bacarmalıdır.
***Açar sözlər**: humanistləşdirmə, empatiya, qarşılıqlı hörmət, fərdi yanaşma, öyrənmə mühiti, şəxsi nümunə*

**Аннотация.** Гуманизация образования требует от учителя демократического стиля работы. Каждый учитель должен рассматривать сидящего перед ним ученика как будущего взрослого, уделять особое внимание его интересам, потребностям, желаниям и нуждам, а также учитывать его мнения и предложения. Для этого учитель должен, прежде всего, обладать коммуникативными способностями, педагогической чуткостью – чувством эмпатии, уметь находить индивидуальный подход к ученикам, проявлять к ним уважение, создавать в классе здоровую морально-психологическую и учебную среду.
***Ключевые слова:** гуманизация, эмпатия, взаимоуважение, индивидуальный подход, среда обучения, личный пример*

**Abstract.** Teachers must adopt a democratic work style to humanize teaching. Every teacher should view the student in front of them as a future adult, pay close attention to their needs and interests, and take into account their thoughts and recommendations. First and foremost, the teacher needs to be empathetic, pedagogically sensitive, and skilled in communication. They also need to treat each student as a person, show them respect, and provide a positive moral-psychological and educational atmosphere.
**Keywords:** *humanization, empathy, mutual respect, individual approach, learning environment, personal example*

Humanist pedaqogika təhsilə mərkəzində şagird şəxsiyyətinin dayandığı bir proses kimi baxır. Zaman keçdikcə, fərdin ehtiyaclarını, ləyaqətini və potensialını prioritetləşdirən daha humanist metodlara doğru əhəmiyyətli dəyişikliklərin aparılması zərurət olaraq meydana çıxır. Bu dəyişikliyin ən vacib elementlərindən biri müəllim və şagirdlər arasındakı münasibətdir. Təhsil və tərbiyənin humanistləşdirilməsi kontekstində müəllim-şagird münasibətlərinin sağlam əsasda qurulması şagirdlərin şəxsiyyətinin, həyati bacarıqlarının, intellektual və emosional sferalarının inkişafına əsaslı təsir göstərən başlıca amilə çevrilir.

Yeni pedaqoji təfəkkürün əsas elementlərindən biri hesab olunan humanistləşdirmə amili müəllim-şagird münasibətlərinin də yeni müstəvidə qurulmasını tələb edir. Dövlətimizin təhsillə bağlı qəbul etdiyi normativ-hüquqi sənədlərdə (1, 2, 3, 4) humanistləşdirmə təhsil sahəsində dövlət siyasətinin başlıca prinsiplərindən biri kimi qəbul edilir, təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan ...yüksək nüfuzlu təhsilverənlərin formalaşdırılması həlli vacib məsələ kimi irəli sürülür, pedaqoji ünsiyyətin sağlam mənəvi-psixoloji əsasda qurulmasının vacibliyi xüsusi olaraq vurğulanır.

Təlim-tərbiyə prosesinin humanist dəyərlərə söykənməsi, pedaqoji ünsiyyətin subyekt-subyekt münasibətləri çərçivəsində qurulması, müəllimlərin demokratik iş üslubunun zəruriliyi humanistləşdirmə amilini də ön plana çəkir. Məktəb həyatının ana xəttinə çevrilən humanistləşdirmə müəllimi də, şagirdi də təlim-tərbiyə prosesinin mərkəzində dayanan bərabərhüquqlu tərəfmüqabillərə çevirir. Humanist dəyərlərə əsaslanan müəllim-şagird münasibətləri əməkdaşlıq pedaqogikasının bütün aspektlərinin nəzərə alınmasını-təhsilalanların maraq və meyllərinin, potensial imkanlarının diqqət mərkəzində saxlanmasını, onlara pedaqoji prosesin subyekti kimi yanaşılmasını tələb edir.

Prof. Ə.Ə. Əlizadənin qeyd etdiyi kimi " Hər bir şagird bir şəxsiyyət olaraq təlim-tərbiyə prosesinin mərkəzi hadisəsidir. Müəllim şagirdin şəxsiyyət olaraq məziyyətlərini görməli, ona hörmət etməli və inanmalıdır. Şagirdin özünü-reallaşdırması üçün məktəbdə müvəffəqiyyət və xeyirxahlıq situasiyasi yaradılmalıdır (5, s. 58).

Müasir dövrdə əməkdaşlıq pedaqogikası anlayışını irəli sürən Ş. Amonaşvili, A. Maslou, K. Rocers kimi görkəmli pedaqoq və psixoloqlar təlim-tərbiyə prosesinin mərkəzində şagird şəxsiyyətinin qoyulmasını, onun maraq və meyllərinin nəzərə alınmasını vacib hesab edir. Ş. Amonaşvilinin təşkil etdiyi Beynəlxalq Humanist Pedaqogika Mərkəzi və onun 2011-ci il 7 iyulda elan etdiyi "Humanist Pedaqogika Manifesti" sevgini, xeyirxahlığı, mərhəməti pedaqoji ünsiyyətin ana xəttinə çevirməyi nəzərdə tutur: "Həm dəcəl, həm də sözəbaxan uşaqları eyni məhəbbətlə sevmək lazımdır. Xeyirxahlıq və uşaqlara məhəbbət onlarla kobud rəftar etməyə imkan vermir. Uşağın həyatına – onun sevincinə, kədərinə, şəxsi həyəcanlarına maraq göstərin, ona kömək edin, hisslərinə şərik olun. Onlara düşünməyi və öz fikirlərini etik şəkildə söyləməyi öyrədin" (6).

Müəllimi nurun daşıyıcısı, şagirdi isə nur axtaran qəlb hesab edən Ş. Amonaşvilinin fikrincə, "insansevər və avtoritar pedaqogikalar arasında qızıl orta yoxdur" (7). Bu baxımdan təhsilə humanist yanaşma müəllim peşəkarlığı ilə vəhdət təşkil edir.

Təhsilin humanistləşdirilməsi şəraitində şagirdlərin hissləri, emosiyaları və ideyaları təhsil prosesinin vacib hissələri hesab edilməklə, öyrədici mühitin bütün elementlərinin formalaşdırılmasına diqqət yetirilir. Bu kontekstdə müəllim həm də bələdçi və nümunə rolunu oynayır. Araşdırmalar göstərir ki, empatiyanın, qarşılıqlı hörmətin, fərdi yanaşmanın və əlverişli tərbiyəvi mühitin yaradılması müəllim-şagird münasibətlərinə töhfə verən əsas elementlər sırasındadır.

***1. Müəllim-şagird münasibətlərində empatiyanın rolu***

Empatiya, yəni başqalarının hisslərini anlamaq və bölüşmək, özünü onların yerinə qoymaq bacarığı humanistləşdirilmiş təhsilin təməl daşlarından biridir. Empatik müəllim-şagird münasibətində müəllimlər hər bir şagirdin fərdiliyini tanıyır və onların emosional, sosial və intellektual ehtiyaclarına cavab verirlər. Sinifdə empatiyanın tətbiqi, şagirdlərin başa düşüldüklərini, dəyərli olduqlarını hiss etdikləri dəstəkləyici mühit onlarla müəllim arasında daha möhkəm bağ yaradır.

Müəllimlər empatiya–daxili duyum hissinə malik olduqda, şagirdlərin üzləşdiyi istər şəxsi, istər akademik, istərsə də sosial problemləri daha yaxşı dərk edə bilirlər və bu çətinlikləri həll etmək üçün öz tədris metodlarını tənzimlə-

yə bilirlər. Məsələn, şagirdin mövzunun dərk edilməsi ilə bağlı problemini başa düşən müəllim fərdi kömək və ya alternativ öyrənmə strategiyaları təklif edə, həmçinin qarşısına çıxan maneələri dəf etməkdə ona kömək edərək emosional dəstək göstərə bilər.

Empatiya həm də şagirdləri bir-biri ilə mehriban və anlayışla rəftar etməyə təşviq etməklə müsbət davranış və mədəniyyət formalaşdırır. Şagirdlər müəllimlərinin empatik davranışları modelləşdirdiyini müşahidə etdikcə, həmyaşıdları ilə qarşılıqlı ünsiyyətdə oxşar münasibəti daha çox mənimsəyirlər. Beləliklə, empatiya həm fərdi müəllim-şagird münasibətlərini, həm də sinif daxilində daha geniş sosial dinamikanı formalaşdırmaq üçün güclü bir vasitəyə çevrilir.

***2. Müəllim-şagird münasibətlərində qarşılıqlı hörmət***

Qarşılıqlı hörmət müəllim-şagird münasibətlərinin humanistləşdirilməsinin digər vacib komponentidir. Hörmət başqalarının dəyərini və ləyaqətini dərk etməyi nəzərdə tutur və sinifdə həm müəllimlərin, həm də şagirdlərin qarşılıqlı münasibətlərdə bu hörməti nümayiş etdirmələri çox vacibdir. Müəllimlər şagirdlərinə hörmət etdikdə, onların müstəqilliyini və fərdiliyini qəbul edir, fikirlərini və təlim prosesinə töhfələrini qiymətləndirirlər. Bu, şagirdlərdə özgüvənlik hissini aşılamaqla yanaşı, həm də sinifdə əməkdaşlıq mühiti yaradır.

Qarşılıqlı hörməti inkişaf etdirməyin yollarından biri fəal dinləmədir. Müəllimlər şagirdlərini diqqətlə dinlədikdə, bu, onların fikirlərinin, narahatlıqlarının və hisslərinin əhəmiyyətli olduğunu göstərir. Öz növbəsində, şagirdlər daha çox dəyərli olduqlarını hiss edir və təlim prosesində fəal iştirak edir, müəllimlər onlarda uğur qazanmaq üçün inam və motivasiya yaratmağa kömək edirlər.

***3. Şagirdlərə fərdi yanaşma***

Təhsilin humanistləşdirilməsində əsas məqsədlərdən biri şagirdlərin müxtəlif öyrənmə ehtiyaclarını qəbul etmək və onlara cavab verməkdir. Tədrisə fərdi yanaşma hər bir şagirdin güclü, zəif tərəfləri, maraqları və öyrənmə üslubları ilə özünəməxsus olduğunu qəbul edir.

Müəllimlər öz yanaşmalarını müxtəlif yollarla fərdiləşdirə bilərlər. Məsələn, onlar müxtəlif öyrənmə qabiliyyətləri və ya ehtiyacı olan şagirdləri müəyyənləşdirməklə sinifdə diferensiallaşdırma aparmaq imkanı əldə edir..

Beləliklə, müəllimlər hər bir şagirdin güclü tərəflərini tanımaqla və inkişaf üçün imkanlar təklif etməklə onların uğur qazana biləcəyi dəstəkləyici mühit yaradırlar.

***4. Öyrənmə mühitinin yaradılması***

Müəllim-şagird münasibətlərinin sağlam əsasda qurulması üçün emosional və intellektual inkişafa şərait yaradan öyrənmə mühitinin formalaşdırılması vacibdir. Hər bir təhsil müəssisəsi maddi-texniki cəhətdən nə qədər yüksək səviyyədə təchiz olunsa da, orada sağlam mənəvi-psixoloji mühit, normal öyrənmə mühiti yaradılmayıbsa, təhsilin keyfiyyət təminatından söhbət gedə bilməz. Ona görə də məktəbdə həm əşyavi mühit, həm informasiya mühiti, həm də emosional mühit öyrənmə prosesinin səmərəliliyini təmin etməyə yönəlməlidir. Sinifdə normal öyrənmə mühiti yaradıldıqda şagirdlər də fikirlərini sərbəst ifadə edə və uğursuzluq qorxusu olmadan öyrəndiklərini nümayiş etdirə bilərlər.

Müəllimlər müsbət davranışı təşviq etmək, münaqişələri sülh yolu ilə həll etmək, emosional və ya psixoloji problemlərlə üzləşən şagirdlərə dəstək verməklə bu tip mühitin yaradılmasında mühüm rol oynayırlar.

***5. Müəllimin şəxsi nümunəsi***

Təhsilin humanistləşdirilməsi kontekstində müəllimlər təkcə tərbiyəçi deyillər; onlar şagirdlərə həyatın mürəkkəbliklərində istiqamət götürməyə kömək edən əxlaqi bələdçilərdir.

Dürüstlük, xeyirxahlıq və məsuliyyət nümunəsi olan müəllimlər şagirdlər üçün həmişə örnəkdir. Müəllimlər bu dəyərləri nümayiş etdirməklə şagirdləri də oxşar münasibət və davranışları mənimsəməyə təşviq edirlər. Bundan əlavə, şagirdlərlə qarşılıqlı münasibətdə ədalətlilik nümayiş etdirən, onlar arasında ayrı- seçkiliyə yol verməyən müəllimlər daha böyük nüfuz qazanaraq başqalarına hörmət və ləyaqətlə yanaşmağın vacibliyini anlamaqda şagirdlərə kömək edir.

**Nəticə.** Beləliklə, müəllimlər empatiya, qarşılıqlı hörmət, fərdi yanaşma nəticəsində şagirdlərin emosional, intellektual və sosial inkişafına töhfə verən qarşılıqlı münasibətləri formalaşdıra bilərlər. Bütün bunlar hər bir şagirdin ləyaqətini və dəyərini qiymətləndirməyə imkan verən öyrənmə mühitinin yaradılmasına kömək edir.

**Problemin aktuallığı.** Pedaqoji prosesdə müəllim-şagird münasibətlərinin düzgün qurulması həmişə diqqət mərkəzində olmuşdur. Təhsilin humanistləşdirilməsi şəraitində şagirdin də müəllimlə bə-

rabərhüquqlu tərəfmüqabilə çevrilməsi münasibətlərin subyekt-subyekt çərçivəsində qurulmasını zərurətə çevirir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə əks olunan fikirlər pedaqoji prosesdə münasibətləri düzgün tənzimləmək və emosional-mənəvi, həmçinin səmərəli öyrənmə mühiti yaratmaqda müəllimlər üçün faydalı ola bilər.

**Ədəbiyyat:**


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. - Bakı: Qanun, - 2009, - 108 s.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // 24 oktyabr 2013-cü ildə qəbul edilmişdir // Azərbaycan müəllimi. - 2013, 25 oktyabr, № 41
3. Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər –president.az/az/ articles / view/ 50474
4. "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" –e qanun.az / framework / 50013
5. Əlizadə, Ə.Ə. Əsrin meqameylləri: psixopedaqoji problemlər. 3 cilddə. İ cild / Ə.Ə.Əlizadə, H.Ə.Əlizadə. - Bakı: ADPU-nun nəşriyyatı, - 2008. - 479 s.
6. Beynəlxalq Numanizm Manifesti.–içhp.org.ru /wp–content/upload/2019/ manifest _az. pdf.
7. Амонашвили, Ш. А. Размышление о гуманной педагогике/ Ш.А Амонашвили – М Издательский Дом Ш. Амонашвили, -1995. -496 с.


**Redaksiyaya daxil olub**: 27.01.2025